Bülleten No: 31 / iyul 2015

Elektron Hökumət Portalı

your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

İYUL 2015

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə




SYSTEM CERTIFICATION ISO 27001 SGS
UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072, № 12, maddə 1247; 2012, № 1, maddə 40, № 3, maddə 256, № 10, maddə 1016, № 11, maddə 1207; 2013, № 6, maddələr 745, 757, № 7, maddə 868, № 8, maddələr 1005, 1018, № 11, maddə 1466, № 12, maddə 1639; 2014, № 1, maddə 69, № 2, maddələr 191, 201, 207, № 3, maddələr 307, 317, № 4, maddə 449, № 5, maddə 560, № 6, maddələr 733, 747, № 7, maddələr 920, 953, № 10, maddələr 1287, 1319, № 11, maddələr 1505, 1506, № 12, maddə 1656; 2015, № 1, maddə 71; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 31 mart tarixli 97 nömrəli qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Elektron xidmət növlərinin Siyahısı”na 24.28-ci və 24.29-cu bəndlər **əlavə edilsin**:

**24.28.** Səhmdar cəmiyyətlərinin səhmlərinin və ya səhm zərflərinin ixtisaslaşdırılmış pul hərraclarında satışına dair sifarişlərin qəbulu

**24.29.** Kiçik dövlət müəssisələrinin (obyektlərinin) əmək kollektivi üzvlərinə güzəştli satışı

**Azərbaycan Respublikasının**
**Baş naziri**
**Artur Rasi-zadə**
*Bakı şəhəri, 5 iyun 2015-ci il*
*№ 218*

# “Elektron Hökumət” portalı vasitəsilə mobil nömrənin hazırda hansı mobil operatora daşındığı barədə məlumat əldə etmək mümkündür

Azərbaycan ərazisində Mobil Nömrədaşıma Xidməti (Mobile Number Portability) 01 fevral 2014-cü il tarixindən etibarən həyata keçirilir. Bununla əlaqədar, müvafiq normativ hüquqi sənədlər qəbul edilmiş, xidmətin fəaliyyəti üçün tələb olunan avadanlıqlar, yəni həm mərkəzi baza sistemi avadanlıqları, həm də mobil operatorların şəbəkələrində tələb olunan avadanlıqlar quraşdırılmış, mobil operatorların şəbəkədaxili yığımları standart formata uyğunlaşdırılmış və aidiyyəti müqavilələr bağlanılmışdır.

Bu xidmət ümumistifadəli telekommunikasiya şəbəkəsi daxilində abunəçinin istifadə etdiyi mobil telefon nömrəsinin (şəbəkə kodu - 050, 051, 055, 070, 077 və nömrəni saxlamaq şərti ilə) həmin abunəçiyə xidmət göstərən mobil operatorun şəbəkəsindən çıxarılaraq digər mobil operatorun şəbəkəsinə daşınmasına imkan yaradır.

Xidmətin əsas məqsədi mövcud telekommunikasiya bazarında rəqabətin artırılmasına, operatorlar tərəfindən abunəçilərə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsinə, nömrə resurslarından effektiv istifadənin təmin edilməsinə, istehlakçı hüquqlarının qorunmasına, abunəçilərin daha səmərəli xidmət təklifi təqdim edən operatorun şəbəkəsinə maneəsiz keçməsinə şərait yaratmaqdan ibarətdir.

Keçən müddət ərzində 18 minə yaxın mobil nömrənin başqa mobil operatora daşınması gerçəkləşdirilmişdir. Qeyd edək ki, “Elektron Hökumət” portalında yerləşdirilmiş elektron xidmət vasitəsilə mobil nömrənin hazırda hansı mobil operatora daşındığı barədə məlumat əldə etmək mümkündür



və bu xidmətdən istifadə etməklə abunəçi etdiyi zəngin dəyərini hesablaya bilər.

Bununla yanaşı, Açıq Hökumət Məlumatları portalında (data.gov.az) “Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi” məlumat bazası açıq edilmişdir və bu baza əsasında mobil tərtibat hazırlanmışdır.

Beynəlxalq praktikaya əsaslanaraq hesab edirik ki, bu xidmət mobil xidmətlər bazarının tənzimlənməsinə xidmət etməklə yanaşı, qiymətlərin aşağı düşməsinə və xidmətin keyfiyyətinin artmasına yol açacaq, həmçinin, sağlam iqtisadi rəqabət mühitinin formalaşmasına dəstək olmaqla, rabitə və informasiya texnologiyaları sektorunun inkişafına təkan verəcəkdir.

www.e-gov.az

# Telefon nömrələrinin *(sim kartların)* satış qaydalarında dəyişiklik edildi

## Azərbaycanda rabitə vasitələrinin satışı və istifadəsi yeni qayda və şərtlər əsasında həyata keçiriləcək

Nazirlər Kabineti "Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlərin təsdiq edilməsi haqqında" qərarına dəyişikliklər edib. Yeni qərarda bir sıra dəyişikliklər və yeniliklər nəzərdə tutulub. Qərarın icrasına nəzarət Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə həvalə olunub. Qərar "Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 7 iyul tarixli 131 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, №7, maddə 665, №12, maddə 1226; 2014, №6, maddə 747) aşağıdakı **dəyişikliklər edilsin**:

**1.1.** adına və 2-ci hissəsinə "Rabitə müəssisələri (operatorlar)" sözlərindən sonra ", həmçinin, onların diler və distribüterləri" sözləri əlavə edilsin;

**1.2.** preambulada "Rabitə haqqında" Azərbaycan Respublikası Qanununun 31-1-ci" sözləri "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun 39.1-ci" sözləri ilə əvəz edilsin;

**1.3.** aşağıdakı məzmunda **2.1**-ci hissə əlavə edilsin:

**2.1.** Telefon nömrələrinin (sabit, mobil) operatorların şəbəkəsində aktivləşdirilməsi, ərizəçiyə dair məlumatlar Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) üzərindən, fiziki şəxslər üçün "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi", hüquqi şəxslər üçün isə Elektron Hökumət Portalına qoşulmuş informasiya sistemləri vasitəsilə identifikasiya edilərək "Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı zamanı tələb olunan şərtlər"ə uyğun olaraq operatorların və MHM-in vahid məlumat bazasına onlayn rejimdə elektron formada daxil edildikdən sonra 24 saat müddətində təmin olunsun";

**1.4. 3**-cü hissəsində "abonentin" sözü "abunəçinin" sözü ilə əvəz edilsin;

**1.5. 4**-cü hissə aşağıdakı redaksiyaya verilsin:

**4.** Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik Nazirliyi ilə razılaşdırmaqla, rabitə müəssisələri (operatorlar) tərəfindən xidmət göstərilən fiziki və hüquqi şəxslər haqqında vahid məlumat bazasının formalaşdırılmasının təşkilini və digər məsələlərin həll olunmasını təmin etsin;

**1.6.** aşağıdakı məzmunda 5-ci və 6-cı hissələr əlavə edilsin:

**5.** Rabitə müəssisələri (operatorlar) öz şəbəkələrinin, əlaqədar sistem və texniki vasitələrinin bu qərara uyğunlaşdırılmasını 3 (üç) ay müddətində tam başa çatdırsınlar və bu müddətdən sonra telefon nömrələrinin (sabit, mobil) satışını yalnız bu qərara uyğun həyata keçirsinlər;

**6.** Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi bu qərarın icrasını nəzarətdə saxlasın;

**1.7.** həmin qərarla təsdiq edilmiş "Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan Şərtlər" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).



**Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan ŞƏRTLƏR**

**1.** Təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən rabitə müəssisələri (operatorlar) (bundan sonra - rabitə müəssisələri), həmçinin, onların diler və distribüterləri tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı aşağıdakı şərtlər təmin edilir:

**1.1.** fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilələrdə və abunəçilərə dair məlumat bazalarında bu şərtlərin əlavəsində göstərilən məlumatların əks olunması;

**1.2.** fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilələrdə abunəçinin identifikasiya modulunun (Sim kartlar və s.) başqa şəxslərə daimi istifadə üçün, habelə mütəmadi gəlir (mənfəət) əldə etmək məqsədi ilə kirayəyə verilməsinə qadağa qoyulmasının əks olunması;

**1.3.** fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilədə abunəçinin identifikasiya modulunun (Sim kartlar və s.) və mobil telefon aparatının oğurlanması və itirilməsi barədə fiziki və hüquqi şəxslər tərəfindən dərhal Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin yerli qurumlarının məlumatlandırılması haqqında müvafiq qeydin olması;

**1.4.** fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilənin Azərbaycan Respublikasının dövlət dilində olması və həmin müqaviləyə fiziki şəxsin (hüquqi şəxs tərəfindən bağlanıldığı təqdirdə, istifadə edən fiziki şəxsin) fotoşəkillə olan şəxsiyyətini təsdiq edən sənədinin surətinin əlavə olunması;

**1.5.** mobil operatorların şəbəkələrində rouminq rabitəsində olan xarici istifadəçilərə aid qeydiyyata alınmış bütün məlumatların ən azı 1 (bir) il müddətində saxlanılmasının təmin edilməsi.

"Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan Şərtlər"ə əlavələr - "Rabitə müəssisələri tərəfindən xidmət göstərilən fiziki və hüquqi şəxslərlə bağlanılan müqavilələrdə və abunəçilərə dair məlumat bazalarında nəzərdə tutulması vacib olan Məlumatlar"ı da təsdiqlənib.

Məlumatlar bütün rabitə müəssisələri (operatorlar), həmçinin, onların diler və distribüterləri tərəfindən Azərbaycan dilində "UNİCOD"la yazılmalı və təqdim edilməlidir.

# Mobil nömrələrin *(sim kartların)* satışı haqda yeni qərarın sosial əhəmiyyətli yeni elektron xidmətlərin hazırlanmasına müsbət təsiri olacaq

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 22 may 2015-ci il tarixli 200 nömrəli qərarına əsasən "Rabitə müəssisələri (operatorlar) tərəfindən rabitə vasitələrinin satışı və istifadəsi zamanı tələb olunan şərtlərin təsdiq edilməsi haqqında" 2005-ci il 7 iyul tarixli 131 nömrəli qərara dəyişikliklər edildi. Belə ki, yeni qərar əsasında telefon nömrələrinin (Sim kartların) satış qaydalarında mühüm dəyişiklik edilir. Yeni qərara uyğun olaraq nömrə satışı zamanı yol verilən bir çox pərakəndə proseslərin sistemləşdirilməsi, eyni zamanda, mövcud qüsurların aradan qaldırılması üzrə tədbirlər görüləcək və yaradılacaq texniki qaydalara uyğun abunəçi informasiya bazası əsasında sosial əhəmiyyətli elektron xidmətlərin hazırlanması mümkün olacaq.

**Bu qərarın hansı əsas üstünlükləri var və bu qərarın icrasına başlandıqdan sonra hansı dəyişikliklər olacaq...**

Birinci əsas üstünlük ondan ibarətdir ki, abunəçi barədə məlumatlar subyekt barədə ilkin mənbədən formalaşdırılmaqla dəqiq şəkildə mərkəzi bazaya daxil edildikdən sonra nömrə aktivləşdiriləcək və bununla da sahibi bəlli olmayan nömrələrdən danışıqların aparılması və ya başqa mobil xidmətlərdən istifadə edilməsi mümkün olmayacaq. Qeyd edək ki, hazırda sənədləşmə prosesi xeyli vaxt aparırdı və abunəçilər sənədləşmə olmadan günlərlə mobil rabitə xidmətlərindən istifadə edirdilər. Bundan sonra mobil nömrələrdən sui-istifadə edərək qeyri-qanuni addımlar atılmasının da qarşısı alınacaq. Bunun isə bir çox məsələlərə, o cümlədən hüquq-mühafizə orqanlarının işinə müsbət təsiri olacaq.

İkincisi, hər 3 mobil operatorun abunəçi bazaları mütəmadi olaraq tərəfimizdən İAMAS-la üzləşdirilir və çox sayda abunəçilərin soyad və adlarında, ünvanlarda və s. uyğunsuzluqlar var ki, bu da İnformasiya Sistemlərinin FİN-ə uyğunlaşdırılmasında, qurumlararası məlumat mübadiləsinin təşkilində, şəxsi kabinetlərin yaradılmasında, bəzi e-xidmətlərin təşkilində və s. bir sıra problemlər yaradır. Sənədləşmə bu qərara uyğun olaraq portal üzərindən verilən xüsusi servis vasitəsilə aparıldıqdan sonra belə səhvlərin qarşısı birmənalı şəkildə alınacaq və qeyd edilən məsələlərin həlli mümkün olacaq. Vaxtı keçmiş, itirilmiş, oğurlanmış, saxta sənədlərlə telefon nömrələrinin satışı qeyri mümkün olacaqdır.

Üçüncüsü, bir abunəçi başqa abunəçinin adına sim kart ala bilməyəcək və yalnız öz adına olan nömrədən istifadə edə biləcək . Bununla da, portal tərəfindən vətəndaşlara müxtəlif bildirişlərin (kommunal borclar, rabitə borcları, cərimələr, məhkəmə və s.) göndərilməsi mümkün olacaq.

**Yeni qərarın "Elektron Hökumət" quruculuğuna və e-xidmətlərə təsiri olacaqmı?...**

Qeyd edək ki, mobil operatorların abunəçi bazalarında olan səhvlər və FİN-ə uyğunlaşma olmaması bir çox e-xidmətlərin hazırlanmasına maneçilik yaradırdı və bu qərarın "Elektron Hökumət" quruculuğuna birbaşa müsbət təsirləri olacaq. Belə ki,

- *Mobil operatorlar üzrə abunəçi bazaları FİN-ə uyğunlaşdıqdan sonra "Elektron Hökumət" portalı üzərindən təqdim edilən sosial xidmətlərin çeşidinin və keyfiyyətinin artmasına gətirib çıxaracaq;*
- *"Elektron Hökumət" portalı üzərindən qanunvericiliyə uyğun olaraq qurumlararası informasiya mübadiləsinin aparılması mümkün olacaq;*
- *"Elektron Hökumət" portalı üzərindən vətəndaşlara istənilən dövlət qurumlarının bildirişlərini (məhkəmə, şəxsiyyət vəsiqəsinin müddətinin bitməsi, banklar, kommunal borclar, rabitə borcları, cərimələr və s.) göndərmək mümkün olacaq;*
- *"Elektron Hökumət" portalı üzərindən formalaşan "Şəxsi kabinetlər"də abunəçinin mobil nömrələri barədə məlumatlar əks olunacaq;*
- *Vətəndaşlarla əks əlaqə yaratmaq mümkün olacaq;*
- *"Elektron Hökumət" portalında onlayn qeydiyyat zamanı mobil nömrənin istifadəçinin öz adına olmaması və ya qrammatik səhvlər səbəbindən yaran problem aradan qalxacaq;*
- *Hüquq-mühafizə orqanlarına təqdim edilən məlumatlar daha dolğun və dəqiq olacaq və s.*

# Vətəndaşlara "E-hökumət"də yeni imkan yaradıldı

**"Elektron Hökumət" portalında vətəndaşlar bundan sonra təklif, irad və fikirlərini də bildirə biləcəklər. "Elektron hökumət" portalında yaradılan "Fikir bankı"na yeni funksiyalar əlavə edilib.**

Yeniliyə əsasən, artıq vətəndaşlar e-xidmətin alt hissəsində olan şərh bölməsindən istifadə edərək "Fikir bankı"nda toplanmış təkliflərə öz münasibətlərini bildirmək imkanı əldə edirlər. Yeni yaradılmış funksiyalardan biri də istifadəçilər tərəfindən təklif və rəylərin videoya çəkilərək "Fikir bankı"na göndərilə bilməsidir.

İnternet istifadəçisi olan istənilən şəxs rəsmi portalda "Fikir bankı"na daxil ola və "Elektron Hökumət" layihəsi çərçivəsində mümkün ola biləcək məsələni təklif kimi qeyd edə bilər. Vətəndaşın verdiyi ideya və ya təklif saytın idarəçiləri tərəfindən təsdiqlənir. Bu prosesdən sonra təklif saytda görünür.




"Elektron Hökumət" layihəsində maraqlı olan internet istifadəçiləri "Fikir bankı"na təklif göndərmək üçün şəxsiyyət vəsiqəsi və ya Feysbuk hesabı ilə qeydiyyatdan keçməlidirlər.

www.e-gov.az

# Dövlət qurumlarının informasiya sistemlərinin cari ilin sentyabr ayında keçiriləcək monitorinqi üzrə hazırlıqlar davam edir

Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamənin 3.1.56-cı yarımbəndinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 may 2010-cu il tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında Əsasnamə"nin 4.1-ci yarımbəndinin tələblərinə əsasən, cari ilin sentyabr ayından başlayaraq "Elektron Hökumət" portalının Operatoru tərəfindən dövlət orqanlarının mülkiyyətində olan informasiya sistemlərinin növbəti monitorinqinin keçiriləcəyi planlaşdırılır.

Bununla əlaqədar müvafiq məlumatların əvvəlcədən əldə edilməsi məqsədilə RYTN Məlumat Hesablama Mərkəzi tərəfindən dövlət qurumlarının mülkiyyətində olan informasiya sistemlərindən səmərəli istifadənin müəyyən edilməsi üçün anket sorğusu hazırlanaraq 36 dövlət qurumuna göndərilmişdir.

**Artıq aşağıda göstərilən 20 dövlət qurumu tərəfindən informasiya sistemlərindən səmərəli istifadənin müəyyən edilməsi üçün tərtib olunmuş anket sorğusu cavablandırmışdır:**

1. KəndTəsərrüfatı Nazirliyi
2. Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası
3. Müəllif Hüquqları Agentliyi
4. Dövlət Statistika Komitəsi
5. Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi;
6. Diasporla İş Üzrə Dövlət Komitəsi
7. Fövqəladə Hallar Nazirliyi
8. Gənclər və İdman Nazirliyi
9. İqtisadiyyat və Sənaye Nazirliyi
10. Vergilər Nazirliyi
11. Ekologiya vəTəbii Sərvətlər Nazirliyi
12. Energetika Nazirliyi
13. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
14. Müdafiə və Sənaye Nazirliyi
15. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
16. Azərsu ASC
17. Əmlak Məsələləri Dövlət Komitəsi
18. Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi
19. Dövlət Miqrasiya Xidməti
20. Azərenerji ASC

Hesab edirik ki, sorğular cavablandırıldıqdan sonra qurumlarda monitorinqlərin keçirilməsi daha operativ və səmərəli olacaqdır.Qeyd edək ki, monitorinqlər zamanı əsasən aşağıdakı məsələlərə diqqət yetiriləcəkdir:

• *informasiya ehtiyatlarının FİN-ə uyğunluğu;*

• *fərdi məlumatların mühafizəsinin müəyyən olunmuş tələblərə uyğun təşkili;*

• *informasiya ehtiyatlarında məlumatlar bazasının strukturu ilə tanışlıq, bazalar arası relativlik prinsiplərinin yoxlanılması;*



• *fərdi məlumatların toplanılmasının və işlənilməsinin mülkiyyətçi və ya operator tərəfindən bəyan edilmiş məqsədlərə uyğunluğu;*

• *digər əlaqəli informasiya sistemləri ilə informasiya mübadiləsi üsulları və kateqoriyalarının monitorinqi;*

• *informasiya sistemlərinin və ehtiyatlarının Portala qoşulması və onların tələblərə uyğunluğunun yoxlanılması;*

• *informasiya sisteminin və ehtiyatlarının "Elektron Hökumət" portalı ilə əlaqəli olan komponentlərinin tələblərə uyğunluğu;*

• *informasiya sisteminin SOAP (SimpleObject Access Protocol) vasitəsilə sorğularla işləmə imkanı;*

• *dövlət orqanlarının informasiya sistemlərinin və ehtiyatlarının qarşılıqlı inteqrasiyasının təmin edilməsi məsələləri;*

• *dövlət orqanları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılma imkanlarının araşdırılması;*

• *qanunvericiliyə uyğun və. sair aidiyyəti məsələlərin monitorinqi.*

Vaxtaşırı keçirilən monitorinqlər dövlət orqanlarının mülkiyyətində olan informasiya sistemlərində fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının İS-lərinin bəyan olunmuş məqsədlərinə, İS-lərinin "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"ə uyğunluğunun yoxlanılmasına və aşkar olunan uyğunsuzluqların aradan qaldırılmasına xidmət edir.

Nəzərinizə çatdırırıq ki, sorğunu cavablandırmaq üçün **https://www.e-gov.az/sorgu** linkinə e-imza vasitəsilə daxil olaraq "Dövlət təşkilatlarında elektron xidmətlərin səmərəliliyini qiymətləndirən tədqiqat sorğusu"nda bəndlər üzrə müvafiq məlumatları doldurub, təsdiq etməklə elektron şəkildə göndərmək və ya həmin linkdən anket formasını çap edib, məlumatları doldurub təsdiq edərək kağız şəklində RYTN-in Məlumat Hesablama Mərkəzinə göndərmək olar.

# "Elektron Hökumət" bülleteninin iyun sayının təqdimat mərasimi keçirildi

9 iyun tarixində "Elektron Hökumət" portalının operatoru tərəfindən "Elektron Hökumət" bülleteninin iyun sayının təqdimatı üzrə brifinq keçirildi. Tədbirdə Azərbaycan Texniki Universitetinin, "Azərişıq"ASC-nin, "Azərsu" ASC-nin nümayəndələri, Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz və media nümayəndələri iştirak etdi.



Tədbiri MHM-nin direktoru açıq elan etdi. O, "Elektron Hökumət" quruculuğu sahəsində son yeniliklər və statistik rəqəmlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi. Natiq bildirdi ki, portal üzərindən təqdim olan e-xidmətlərin sayı və e-xidmətlərdən istifadə də dinamik artım var. Belə ki, "Elektron Hökumət" portalına daxil olanların sayı 1,8 milyonu, elektron xidmətlərdən istifadə sayı isə 11,6 milyonu keçmişdir. Portal üzərindən təqdim olunan e-xidmətlərin sayı artıq 420-dir. Statistik göstəricilərə görə may ayı ərzində portala müraciət edənlərin 23,7%-ni yeni istifadəçilər, 76,3%-ni təkrar müraciət edənlər təşkil edib.

Daha sonra, natiq tədbirdə iştirak edən AzTU-nin kafedra müdiri Zəfər Cəfərovu təqdim edərək RYTN MHM ilə Azərbaycan Texniki Universitetin birgə təşəbbüsü olaraq icrasına başladıqları elm-təhsil və texnologiyalar birliyinin yaradılmasının önəmli yeniliklərdən biri olduğunu, bunun ilk olaraq AzTU-ilə birgə reallaşdırıldığının təsadüfi olmadığını vurğuladı.

Elm-Təhsil və Texnologiyalar birliyinin yaradılmasında məqsəd universitetin tədris etdiyi nəzəri biliyə praktiki dəstəyin verilməsi olduğu qeyd olunaraq birgə əməkdaşlıq əsasında Universitetdə "E-imza" və "Elektron Hökumət" Portalı, "Elektron xidmətlər" laboratoriyalarının təşkil olunacağı vurğulandı. Belə laboratoriyalarda tələbələr "E-imza" sertifikatlarının, eləcə də "E-Hökumət" üzrə yaradılacaq test mühitində Nazirlər Kabineti tərəfindən təsdiqlənən xidmətlərin elektronlaşması və mobil tərtibatların hazırlanma prosesində əyani iştirak edərək xidmət təminatçısı kimi fəaliyyət göstərəcəklər.

Z.Cəfərov çıxışında MHM ilə birgə elmi fəaliyyətlərdən bəhs edərək "Elektron idarəçilik, İnformasiya sistemləri və kibertəhlükəsizlik" Elm-Təhsil və Texnologiyalar Birliyinin əsasnaməsinin artıq təsdiq edildiyini və bu əsasnaməyə əsasən elmi-metodiki fəaliyyət istiqamətlərinin müyyənləşdirildiyini bildirdi. Birliyin tədris planının əsasnamə üzrə təsdiq edildiyini qeyd edən Z.Cəfərov bu əməkdaşlığın elmi-praktiki əhəmiyyətini nəzərə çatdırdı.

Aparıcı dövlət orqanlarının elektron xidmətlərindən geniş istifadə edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanına uyğun olaraq dövlət orqanlarının portala inteqrasiyası üzrə işlərin davam etdirildiyini, bu ay daha bir dövlət qurumunun portala inteqrasiyasını vurğulayaraq "Azərişıq" ASC-nin rəsmiləri Vüqar Həşimovu və Tanrıverdi Mustafayevi təqdim etdi.

"Azərişıq"ASC-nin nümayəndəsi Tanrıverdi Mustafayev ilk növbədə qurumun portala qoşulması üçün texniki məsələlərin həll edilməsi istiqamətində və informasiya sisteminin FİN-ə uyğunlaşdırılması ilə əlaqədar portalın operatoru olan MHM-ə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. "Azərişıq" ASC-nin portal üzərindən təqdim edəcəyi elektron xidmətlərin adlarını açıqlayaraq bu xidmətlərin ictimai mahiyyətindən söz açdı.

Daha sonra, Vüqar Həşimov tezliklə vətəndaşlara təqdim olunacaq elektron xidmət çeşidinin artacağını, abonentlərin tələbatlarının vaxtında ödənilməsi üçün abunəçi sorğularının onlayn qəbulu, borcun onlayn araşdırılması və s. elektron xidmətlərin vətəndaşlara təqdim ediləcəyini bildirdi.

Tədbir çərçivəsində "Azərsu" ASC-nin nümayəndəsi Anar Cəbrayılzadə çıxış etdi, son dövr ərzində E-hökumət istiqamətində MHM ilə aparılan səmərəli əməkdaşlıqdan, informasiya sisteminin FİN-ə uyğulaşdırılması üzrə görülən birgə işlərdən, hazırlanan e-xidmətlərdən bəhs etdi. Anar Cəbrayılzadə abonent məlumatlarındakı texniki səhvlərdən danışaraq, sosial xidmətlərin elektronlaşması prosesinin ləngiməsini belə səhvlərin mövcudluğu ilə əsaslandırdı. O hazırda bu istiqamətdə MHM-nin əməkdaşları ilə birgə İAMAS-la üzləşdirmə aparıldığını, abonent məlumatlarının ~50%-nin texniki şərtlərə uyğun tənzimlənildiyini söylədi.

Nümayəndə qurum tərəfindən yaradılmış müştəri informasiya sisteminin ictimai rolundan danışdı, cari ilin 5 ayı ərzində sistemə daxil olan 100000-dən artıq vətəndaş sorğusunun cavablandırıldığını nəzərə çatdırdı. Daha sonra, "Azərsu" ASC-nin elektron mühitin formalaşdırılması üzrə gördüyü işlər barədə məlumat verərək gələcəkdə qurum tərəfindən onlayn ictimai xidmətlərin sayının artırılacağını qeyd etdi.

Azərbaycan İnternet Forumunun rəhbəri Osman Gündüz öz çıxışında qurumların elektronlaşma sahəsində icra etdiyi işləri yüksək qiymətləndirdiyini qeyd etdi. O adı çəkilən məlumat bazalarının hələ də tamamilə texniki şərtlərə uyğun tənzimlənmədiyini və bu səbəbdən portal üzərindən təqdim olunan "Şəxsi Kabinet"-də istifadəçi məlumatlarının natamam olmasını vurğuladı.

Tədbirdə "Elektron Hökumət" portalı tərəfindən daha bir yenilik açıqlandı. Portalın operatoru RYTN MHM-in direktoru N.Mərdanov mobil operatorlar tərəfindən yeni nömrələrin satışı prosesinin yeni qərara əsasən tezliklə texniki qaydalara uyğun olaraq portal üzərindən həyata keçiriləcəyini və köhnə nömrələrin İAMAS-a uyğunlaşdırılacağını, bunun sayəsində isə portal tərəfindən vətəndaşlara SMS vasitəsilə ödənişlər, cərimələr və s. üzrə bildirişlərin göndəriləcəyi xəbərini verdi.

Tədbir mətbuat nümayəndələrinin sualları üzrə müzakirələrlə yekunlaşdı.

www.e-gov.az

# "Elektron Hökumət portalı: vətəndaş dövlət münasibətlərində yeni ünsiyyət platforması" mövzusunda seminar keçirilib

**25 iyun tarixində Elektron Hökumət Portalının operatoru və "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyinin təşkilatçılığı ilə Elektron hökumət portalı: vətəndaş dövlət münasibətlərində yeni ünsiyyət platforması" mövzusunda seminar keçirilib. Seminar Azərbaycan Şəffaflıq Tərəfdaşlığı (AŞT) layihəsi çərçivəsində gənclər arasında idarəçilikdə şəffaflığın və hesabatlılığın artırılması istiqamətində həyata keçirilən maarifləndirici silsilə tədbirlərin davamıdır.**

Seminarın məqsədi gənclərin elektron hökumət və elektron xidmətlər, dövlət reyestrləri, açıq hökumət və elektron hökumətin inkişaf perspektivləri və bu istiqamətdə gənclərin rolu ilə bağlı bilik və bacarıqların artırılmasıdır.

Seminarda Məlumat Hesablama Mərkəzinin direktoru giriş sözü ilə çıxış edərək, "Elektron Hökumət" layihəsi, elektron xidmətlər, e-imza, bu layihələrin əhəmiyyəti, inkişaf yolu, əldə edilmiş nailiyyətlər, çətinliklər, məqsəd və qarşıda duran hədəflər və bu sahənin inkişafında gənclərin rolu haqqında çıxış etdi, gəncləri bu istiqamətdə daha fəal olmağa dəvət etdi.

Sonra ekspert qismində çıxış edən Məlumat Hesablama Mərkəzinin şöbə müdiri, İlqar Abdullayev elektron hökumətin formalaşdırılması, inkişaf mərhələləri və infrastrukturu haqqında ətraflı məlumat verdi. Natiq eyni zamanda dövlət reyestri, açıq hökumət və elektron hökumətin inkişaf perspektivləri və bu istiqamətdə gənclərin rolu haqqında danışdı.

Fasilədən sonra Məlumat Hesablama Mərkəzinin şöbə müdiri Cəmşid Naxçıvanski elektron hökumət sisteminə qoşulmanın texniki-funksional sxemi, elektron xidmətlərin portala inteqrasiya olunması və "Elektron Hökumət"in informasiya və şəbəkə təhlükəsizliyi sistemi haqqında məlumat



verdi.

Növbəti fasilədən sonra mərkəzin mütəxəssisi, Günay Hüseynova vətəndaşlar tərəfindən daha çox istifadə olunan elektron xidmətlər, elektron arayışlar barədə və bu arayışları tətbiq edən banklar barədə məlumat verdi və bir çox elektron xidmətləri test edərək əyani şəkildə nümayiş etdirdi.

Növbəti sessiyada isə, Məlumat Hesablama Mərkəzinin Milli Sertifikat Xidmətləri Mərkəzinin müdiri Arif Mayılov elektron imza infrastrukturu, ondan istifadə qaydaları, tətbiq sahələri, yeni nəsil şəxsiyyət vəsiqələrinin mahiyyəti və e-imzanın kütləviləşməsində yeni nəsil şəxsiyyət vəsiqələrinin rolu haqqında məlumat verdi.

Seminarın növbəti hissəsi isə daha çox interaktiv şəkildə keçdi və ekspertlər "Elektron Hökumət", elektron xidmətlər, elektron imza ilə bağlı gəncləri maraqlandıran sualları cavablandırdılar.

Tədbirin sonunda bütün iştirakçılara "Elektron Hökumət" portalından istifadə etmək üçün kod/parollar paylanıldı və elektron imza sertifikatları hədiyyə edildi.

# AzTU-da Elm-Təhsil və Texnologiyalar Birliyinin yaradılması barədə müqavilə imzalanmışdır

**İyunun 8-də Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Elektron Hökumət" Portalının operatoru Məlumat Hesablama Mərkəzinin nümayəndə heyəti Azərbaycan Texniki Universitetində olmuşlar. Universitetin rektoru, professor Havar Məmmədovla söhbət zamanı qeyd edilmişdir ki, son illər ölkəmizdə aparılan uğurlu islahatlar, quruculuq işləri, iqtisadiyyatda baş verən yüksəliş qeyri-neft sektorunun, xüsusilə də İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) sektorunun inkişafına müsbət təsir göstərmişdir.**

Azərbaycan Texniki Universiteti və Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi birgə Elm-Təhsil və Texnologiyalar Birliyinin yaradılması qərara alınmış və bu barədə AzTU və "Elektron Hökumət" portalının operatoruarasında müqavilə imzalamışlar. Hər iki müəssisə yeni tərəfdaşlıq əsasında "Elektron idarəçilik, İnformasiya sistemləri və Kibertəhlükəsizlik" Elm-Təhsil və Texnologiyalar Birliyinin yaradılamsı istiqamətində işlərin icrasına başlamışdır."Elektron idarəçilik, İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" üzrə ali təhsilli kadrların hazırlığı istiqamətində elm-təhsil və biznes səylərini birləşdirmək vəzifəsi qarşıya qoyulmuşdur. Azərbaycan Texniki Universitetinin "İnformasiya texnologiyaları və proqramlaşdırma" kafedrasında "Elektron İmza" laboratoriyasının yaradılması barədə məsələ müzakirə olunmuşdur.

İnformasiya Texnologiyaları sahəsində ixtisaslaşmış və peşəkar kadr potensialına malik Məlumat Hesablama Mərkəzinin əsas fəaliyyəti informasiya texnologiyalarının bütün istiqamətlərini əhatə edir.

Qocaman təhsil müəssisələrindən olan AzTU ölkəmizə kadr potensialı hazırlığında daim öndə olmuşdur və bu gün də peşəkar kadr hazırlığı üçün dünyada gedən tendensiyalardan yararlanmaq istiqamətində davamlı fəaliyyət göstərir.

Cəmiyyətimizin yaşadığı mövcud informasiya əsrində təcrübə mübadiləsinin böyük əhəmiyyət kəsb etdiyi innovativ elmi inkişaf dövründə AzTU ilə RYTN MHM-nin belə bir elmi texnoloji tərəfdaşlığının yaradılması zərurətdən irəli gələn bir hadisədir."Milli Strategiya"nın əsas prinsiplərinə və strateji istiqamətlərinə uyğun təşkil olunan bu birlik ali təhsilin yüksək texnologiyalar bazasında inkişafını təmin edəcək və elmi tədqiqatların aparılmasında əlverişli şəraitin formalaşdırılmasına vəsilə olacaqdır.

# "Elektron Hökumət" Portalının operatoru PADOS layihəsinin fakt araşdırıcı missiyası ilə müzakirələr aparmışdır

29.06.2015-ci il tarixdə RYTN MHM-də, RYTN-nin, MHM-in və ETM-in əməkdaşları PADOS layihəsinin fakt araşdırıcı çərçivəsində təşkil olunan görüşdə iştirak etdilər.



**İştirakçı Demokratiya, Açıq İdarəetmə və səmərəli "Elektron Hökumət" xidmətləri üzrə "Şərq Tərəfdaşlığı" ölkələri üçün kadr potensialına dəstək layihəsi olan PADOS Finlandiyanın Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilmişdir. Hədəf Şərq Tərəfdaşlığına üzv ölkələrdə (Azərbaycan, Belarusiya, Gürcüstan, Moldova, Ukrayna) İştirakçı Demokratiya, Açıq İdarəetmə və səmərəli "Elektron Hökumət" xidmətləri üzrə görülən işlərlə tanış olaraq bu istiqamətdə icra olunan proseslərə dəstək göstərməkdir.**

"Şərq Tərəfdaşlığı"-nın məqsədi siyasi əməkdaşlıq və iqtisadi inteqrasiyanın dərinləşdirilməsi ilə AB ölkələri və Şərq Tərəfdaşları arasında münasibətlərin möhkəmləndirilməsidir. "Şərq Tərəfdaşlığı" tərəfdaş ölkələrini AB standartları əsaslı siyasi, təşkilati və iqtisadi islahatlarında dəstəkləməklə, həmçinin, AB ölkələri və tərəfdaş dövlətlər arasında ticari əlaqələri sadələşdirərək və mobilliyi artıraraq AB strukturları ilə birlikdə dərin inteqrasiya təklif edir. Finlandiya "Şərq Tərəfdaşlığı"nı təkcə siyasi səviyyədə deyil, həmçinin, kadr potensialının hazırlanmasında, qarşılıqlı təlim platformalarında və maarifləndirici tədbirlərdə də aktiv şəkildə dəstəkləyir.

PADOS layihəsinin fakt araşdırıcı çərçivəsində təşkil olunan görüşdə Estoniya Diplomatiya Universitetinin proqram meneceri Katrin Borgen və Finlandiya Maliyyə Nazirliyinin müşaviri Juhani Korhonen eləcə də, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin və Elektron Təhlükəsizlik Mərkəzinin əməkdaşları, AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın əməkdaşları iştirak etdilər. Görüşün keçirilməsində məqsəd ölkəmizdə inkişaf etməkdə olan Elektron Hökumət infrastrukturu, Elektron Hökumət strategiyası və məqsədləri, əsas komponent kimi "Elektron Hökumət" portalı, İnformasiya Təhlükəsizliyi, Kiber Təhlükəsizlik və s. üzrə görülən işlər barədə məlumat toplamaq, fikir mübadiləsi aparmaqla sistemli və məqsədəuyğun əməkdaşlıq təşkil etməkdir.

Görüş çərçivəsində müzakirələr 3 komponent,

***1.*** *Vətəndaş iştirakının təşviqi və onun strategiyaları və bununla bağlı digər məsələlər;*

***2.*** *E-hökumət strategiyası və onun məqsədləri, E-hökumət üzrə ən yaxşı təcrübələr bu çərçivədə dövlət orqanlarında İKT infrastrukturu, milli rəqəmsal identifikasiya və rəqəmsal imza, kibertəhlükəsizlik, beynəlxalq kibertəhlükəsizlik əməkdaşlıqları və s. məsələlər;*

***3.*** *Cari dövlət idarəçilik islahatları və məsul qurumlar, dövlət idarəçiliyi islahatlarında elmi araşdırmalardan istifadə və s. məsələlər üzrə qruplaşdırılmışdır.*

RYTN MHM-də baş tutmuş görüşdə "Elektron Hökumət" infrastrukturu, Dövlət İnformasiya Reyestrləri və əsas komponent kimi "Elektron Hökumət" portalı barədə prezentasiya əsasında məlumat verildi. E-hökumət 1.0, E-hökumət 2.0 və "Elektron Hökumət" 3.0 barədə ətraflı məlumat verən mühazirəçi birinci inkişaf mərhələsində portalın fəaliyyətinə 45-ə yaxın hökumətyönümlü elektron xidmətin vətəndaşlara təqdimi ilə başlanıldığı söylənildi. Daha sonra, portal üzərindən istifadəçiyönümlü xidmətlərin və funksionallıqların təqdiminə üstünlük verildiyi qeyd edildi. "Elektron Hökumət" portalının gündəliyində olan məsələlər, yeni layihələr barədə məlumat verildi.

Vətəndaş iştirakının təşviqi və onun strategiyaları, təcrübələri, bu istiqamətdə problemlər müzakirə edildi, hökumətdə informasiya açıqlığının təbliği üzrə görülən işlər danışıldı.

Həmçinin, layihənin təşkilatçılarına İnformasiya Təhlükəsizliyi və Kiber Təhlükəsizlik sahəsində görülən işlər prezentasiya üzrə təqdim edildi.

PADOS layihəsinin fakt araşdırıcı missiyası vasitəsilə dövlət idarəçiliyi sahəsində mövcud ehtiyacların müəyyənləşdirilməsi və bu istiqamətdə seminar və təlimlərin təşkil olunması nəzərdə tutulur. Bu məqsədlə missiya tərəfindən Bakıda il ərzində e-hökumət, e-xidmətlər, kibertəhlükəsizlik, yaxşı idarəçilik (good governance) və s. mövzular üzrə seminarın keçirilməsi təklif olundu. RYTN nümayəndələri tərəfindən hər il keçirilən ənənəvi Bakutel Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgi və konfransı haqda məlumat verildi və təklif olunan seminarın bu tədbir çərçivəsində keçirilməsinin əhəmiyyəti nəzərə çatdırıldı.

Görüş qonaqların sualları əsasında müzakirələrlə davam etdi.

www.e-gov.az

# "Azərkosmos" ASC və Məlumat Hesablama Mərkəzinin mütəxəssisləri "ISO 27001/2013" beynəlxalq standartı ilə əlaqədar məsləhətləşmələr aparıblar

**17 iyun tarixində "Azərkosmos" ASC-nin nümayəndələri Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzində mərkəzin mütəxəssisləri ilə görüşüblər. Görüş çərçivəsində MHM-in müvafiq sahə üzrə mütəxəssisləri "Azərkosmos" ASC-nin nümayəndələrinə informasiya texnologiyaları və təhlükəsizliyi üzrə məsələlərin "ISO 27001/2013" beynəlxalq standartlarına uyğun tənzimlənməsi, bununla bağlı müvafiq hesabatların və sənədlərin tərtib edilməsinin zəruriliyi barədə məlumat verdilər.**

Müəssisənin informasiya texnologiyaları və təhlükəsizliyi üzrə məsələlərin "ISO 27001/2013" beynəlxalq standartlarına uyğun təşkili üçün lazımi prosedurlar izah edildi. İlkin olaraq, əsaslı təcrübənin formalaşması üçün "ISO 27001/2013" beynəlxalq standartlarına aid bəzi informasiya mənbələri tövsiyə edildi.

Toplantı çərçivəsində informasiya texnologiyaları və təhlükəsizliyi üzrə risklərin, boşluqların təyin edilməsi məsələləri təhlil edildi, onların müvafiq qaydalara uyğun aradan qaldırılma üsulları müzakirə edildi. Bu sahədə "Azərkosmos" ASC-nin nümayəndələrini maraqlandıran suallar cavablandırıldı.

Xatırladaq ki, ötən ilin may-iyun aylarında MHM informasiya texnologiyaları və təhlükəsizliyinin təminatı sistemi üzrə "İSO 27001/2005" beynəlxalq standartlar sertifikatına layiq görülmüşdür. Keçən dövr ərzində MHM informasiya texnologiyaları və təhlükəsizliyi üzrə məsələləri "ISO 27001/2013" beynəlxalq standartının tələblərinə uyğun təşkil etmiş və cari ayın əvvələri İsveçrənin beynəlxalq SGS Audit Şirkətinin (Societe Generale de Surveillance) Azərbaycan nümayəndəliyi tərəfindən müəssisənin informasiya texnologiyaları və təhlükəsizliyi üzrə auditi həyata keçirilmişdir.

Görüş zamanı "Azərkosmos" ASC-yə MHM tərəfindən bu istiqamətdə lazımi dəstəyin göstəriləcəyi bildirildi.

# Müəllimlərin müraciətləri əsasında yerdəyişməsi prosesi ilə əlaqədar ƏƏSMN və TN arasında elektron məlumat mübadiləsinə başlanılıb




**Ümumi təhsil müəssisələri və peşə liseylərində işləyən müəllimlərin müraciətləri əsasında onların bir rayondan (şəhərdən) başqa rayona (şəhərə) yerdəyişməsi prosesi ilə əlaqədar Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi ilə Təhsil Nazirliyinin (TN) informasiya sistemi arasında məlumat mübadiləsinə başlanılıb.**

Belə ki, iş yerini başqa rayona (şəhərə) dəyişmək istəyən müəllimlər TN-in rəsmi saytındakı "Müəllimlərin işə qəbulu" səhifəsinə daxil olaraq elektron ərizə ilə müraciət edirlər. Bu zaman müraciət edən şəxsin TN-nin hər hansı qurumunda işləyib-işləmədiyinin müəyyən olunması ƏƏSMN-nin əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminə edilən sorğu ilə müəyyən edilir. Sorğuya cavabda şəxsin TN-nin hər hansı qurumunda işləməsi təsdiqini tapdığı halda sistem tərəfindən onun müraciət ərizəsi qəbul olunur. Əks halda, TN-nin elektron xidməti tərəfindən elektron müraciətin qəbul olunmasına sistem tərəfindən icazə verilmir.

Xatırladaq ki, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bu barədə ƏƏSMN-nin elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişi həmin sistemdə qeydiyyata alındıqdan sonra hüquqi qüvvəyə minir. Ötən il iyulun əvvəlindən istifadəyə verilən bu sistem hazırda ölkənin əmək bazarı haqqında zəngin informasiya bazasına malik olmaqla, əmək müqaviləsi əsasında işləyən bütün işçilər barədə məlumatları özündə əhatə edir.

# Beynəlxalq Mətbuat Mərkəzində "Elektron xidmətlər"-lə bağlı 6 aylıq tərəqqi hesabatı təqdim edildi

***Şəffaflıq Azərbaycan Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi Milli Şəffaflıq Sisteminin qiymətləndirməsi layihəsi çərçivəsində 29 İyun 2015-ci il tarixində, Beynəlxalq Mətbuat Mərkəzində "Elektron Xidmətlər və "Elektron Hökumət" sahəsində görülən işlər və problemlər" ilə bağlı son 6 ayı əhatə edən tərəqqi hesabatını geniş ictimaiyyətə təqdim etdi.***

Təqdimat mərasimini açılışında qurumun rəhbərliyi tərəfindən qeyd olundu ki, Azərbaycanın dövlət idarəetməsində elektron xidmətlər sahəsi dinamik sahələrdən hesab edilə bilər. Bu sahədə olan problemlər əsasən maliyyə çatışmazlığı və kadr problemi ilə əlaqədardır.

Sonra, "Elektron Hökumət" portalının operatorunun əməkdaşı İ.Abdullayev çıxış edərək, təmsil etdiyi qurumun "Elektron Hökumət" quruculuğu istiqamətində gördüyü işlərdən və gələcək planlardan söhbət açdı. Məruzəçi qeyd etdi ki, cari ilin keçən dövrü ərzində "Elektron Hökumət" sahəsində bir çox mühüm işlər həyata keçirilmişdir. Belə ki, artıq vətəndaşlar bir sıra arayışları (yaşayış, iş yerindən arayış, diplom haqqında arayış, kommunal borcun olmaması barədə arayış, vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış və s.) dövlət qurumuna getmədən "Elektron Hökumət" portalından əldə edə bilirlər. Bundan başqa, yanvar ayında açıq hökumət məlumatları portalı (data.gov.az) istifadəyə verilmişdir və hazırda, data.gov.az portalı vasitəsilə müxtəlif dövlət qurumları üzrə 21 adda məlumat bazaları açıq edilmişdir. Bununla yanaşı, MHM Açıq Hökumət Məlumatları üzrə startup layihələrinin təşkilatçısı və iştirakçısı kimi fəaliyyət göstərir.

MHM İcra Hakimiyyətləri ilə əməkdaşlıq edərək bir sıra sosial xidmətlərin elektronlaşması istiqamətində işlər görmüş, fikir və təcrübə mübadiləsi aparılmışdır. "Yerli icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin qəbuluna "Elektron Hökumət" portalı vasitəsilə yazılmaq və prosesin onlayn izlənilməsi" xidmətinin hazırda vətəndaşlar üçün daha çox aktual olduğu müəyyən edilmiş və bu xidmət xidmət tam şəkildə elektronlaşdıraarq istifadəyə verilmişdir. Hazırda, bu sahə üzrə 22 nümunəvi e-xidmət elektronlaşdırılmışdır və portal üzərindən vətəndaşların istifadəsinə verilməsi nəzərdə tutulmuşdur.

Naqtiq bildirdi ki, cari ildə MHM tərəfindən bir çox ali məktəblərdə, kolleclərdə "Elektron Hökumət" istiqaməti üzrə maarifləndirici tədbirlər həyata keçirilmiş, gələcəyin iş adamları olan tələbələrə ölkədə cərəyan edən elektronlaşma prosesləri və startup layihələr barədə geniş məlumat verilmişdir. Eyni zamanda yazı müsabiqəsi və mobil tərtibatların hazırlanması üzrə müsabiqə keçirilmişdir.

Həyata keçirilən tədbirlər sayəsində portaldakı e-xidmətlərdən istifadə sayı dinamik artmışdır. Belə ki, 1 iyun 2015-ci il tarixə portalın istifadəçilərinin sayı 1,9 milyon nəfərə çatmışdır və onlar 11,6 milyon dəfə e-xidmətlərdən istifadə etmişlər.

Sonda dövlət qurumlarının informasiya sistemlərinin "Elektron Hökumət" portalına inteqrasiyasının və qurumlararası məlumat mübadiləsinin zəruri olduğu və bunun üçün bütün qurumların öz öhdəliklərini vaxtında icra etmələrinin vacibliyini vurğuladı.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin innovasiyalar və strateji araşdırmalar şöbəsinin müdir müavini Fariz Cəfərov təmsil etdiyi agentliyin elektron xidmətlər sahəsində gördüyü işlərdən danışdı. O, həmçinin qeyd etdi ki, VXSİA hazırda qurumlar tərəfindən göstərilən bütün xidmətlərin reyestrini yaradır, sözügedən reyestr yaxın müddət ərzində tamamlanacaqdır.

Daha sonra Milli Şəffaflıq Sistemi layihəsinin koordinatoru, Məhəmməd Muradov təqdimatla çıxış etdi. O monitorinq zamanı hər bir vətəndaşın doğulmasından tutmuş vəfat edənə qədər ehtiyac duyduğu ictimai xidmətlərin monitorinqinin həyata keçirdiyini vurğuladı.

Məruzəçi bir çox xidmətlərin elektronlaşdırılmasına ehtiyac olduğunu vurğuladı və qeyd etdi ki, hələ də daşınmaz əmlak, torpaq kadastr məlumatları, səhiyyə məlumatları, arxiv məlumatları tam elektronlaşmamışdır.

Tədbir mətbuat iştirakçıların sualları üzrə müzakirələrlə yekunlaşdı.

# Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (ABEMDA) öz elektron xidmətlərini "Elektron Hökumət" portalına inteqrasiya edəcək

11 iyun tarixində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin nümayəndələri və Elektron Hökumət portalının operatorunun rəhbərliyi ilə birgə görüş keçirilib. Görüşün mövzusu Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarına əsasən təsdiq edilmiş elektron xidmətlər siyahısı üzrə "Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazənin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" xidmətinin elektronlaşdırılması və portal üzərindən "bir pəncərə" prinsipinə uyğun olaraq vətəndaşlara təqdim edilməsi olub.

Hər iki qurum arasında öncə müvafiq xidmətin məqsədəuyğun təşkili üzrə müzakirələr aparıldı. Portal üzərindən təqdim olunacaq xidmətin asanlığı və səmərəliliyi, həmçinin, virtual olaraq vətəndaşlara göstəriləcək xidmətin məzmunu və keyfiyyəti danışıldı.

Daha sonra, "Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətə xüsusi icazənin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" xidmətinin elektronlaşdırılması üçün mövcud texniki imkanlar barədə diskusiya aparıldı. Sözügedən xidmətin NK tərəfindən təsdiq olunmuş müvafiq texniki qaydalara uyğun hazırlanması üçün zəruri informasiya və portala qoşulma sxemi qurum nümayəndələrinə təqdim edildi.

Görüş çərçivəsində Məlumat Hesablama Mərkəzi bu istiqamətdə lazımi dəstəyin təmin olunacağını qeyd etdi.

www.e-gov.az

# “Elektron Hökumət” Portalının operatorunun Zəng Mərkəzi daha bir innovativ xidmətin təqdimatına hazırlaşır

"Elektron Hökumət" portalının operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin (MHM) Zəng (Çağrı) Mərkəzi bu yaxınlarda daha bir innovativ xidmətin təqdimatına hazırlaşır.




Tezliklə Zəng Mərkəzinə qurumlarla bağlı daxil olan müraciətlərin dərhal aidiyyəti qurumun zəng mərkəzinə yönləndirilməsi üçün sistem yaradılacaq. Bununla da vətəndaşların digər qurumlarla bağlı müraciətləri vaxt itirilmədən yönləndiriləcək və cavablandırılacaq.

Təqdim olunan xidmətlərin keyfiyyətinin artırılması üçün ötən il MHM-in 157 Zəng Mərkəzi yenilənib. Mərkəz istər texniki avadanlıq, istərsə də ixtisaslı kadr baxımından tam şəkildə təchiz edilib. Nəticədə Mərkəzə edilən müraciətlərin sayı xeyli artıb. Belə ki, ötən ilin sentyabr ayından bugünədək Mərkəzə 61 min 71 zəng daxil olub və bütün zənglər operativ şəkildə cavablandırılıb.

Bundan başqa, 157 Zəng Mərkəzi "Elektron Hökumət" portalı üzərindən vətəndaşlara təqdim olunan "Onlayn konsultasiya" xidməti vasitəsilə daxil olan müraciətləri də cavablandırır. Bu xidmət üzrə ötən bir ay ərzində Mərkəzə 3964 müraciət daxil olub.

MHM-in elektron poçt ünvanı üzrə isə Mərkəzə təxminən 30 min müraciət daxil olub və hər bir müraciətə eyni diqqətlə baxılıb.

Qeyd edək ki, gün ərzində MHM-in "Skype" və "Facebook" ünvanlarına 20-dən artıq müraciət daxil olur və onlar dərhal həll edilir.

## Ziraatbank biznes proseslərini "Elektron Hökumət" Portalı vasitəsilə avtomatlaşdırmaq niyyətindədir

Ziraat Bankası

Günümüzdə "vaxt nəğd puldur" deyimi öz əksini tapmaqdadır. Artıq bütün biznes sahələrində kompüter vasitəsilə icra olunan bir çox əməliyyatların avtomatlaşdırılması, operatorların işini asanlaşdırmaqla yanaşı, müştərinin vaxtına qənaət edir, həmçinin, dəqiq məlumat transferini təmin edir.

Bununla əlaqədar olaraq, 25.06.2015-ci il tarixdə Azərbaycanda yeni fəaliyyətə başlamış "Ziraat Bank Azərbaycan" ASC və "Elektron Hökumət" portalının əməkdaşları arasında görüş keçirildi. Toplantıda portalın imkanları haqqında danışılaraq bank nümayəndələrinə portalın imkanları barəsində əyani məlumat verildi. Müzakirə zamanı, "Ziraat Bank Azərbaycan" ASC-dən bundan sonra Portalın texniki imkanlarından istifadə edərək bir çox əməliyyatların avtomatik icrasını portal vasitəsilə təmin etmək istəyi bildirildi. Bu əməkdaşlıq əlavə vaxt itkisi, məlumatları əl ilə daxil edərkən yol verilə biləcək səhvlərin qarşısını almaqla yanaşı, biznes proseslərinin belə avtomatlaşdırılması zəruriyyətini ortaya çıxarmışdır.

Bununla bağlı olaraq, bankın fəaliyyətində operativliyi və etibarlılığı təmin etmək məqsədilə Portalın imkanlarından istifadə üçün birgə əməkdaşlığa başlanılması təklif olunmuşdur. Əlavə olaraq, görüşdə internet bankçılıq və elektron arayışlar barəsində də müzakirələr aparılmışdır.

Qeyd edək ki, hal-hazırda Portalın operatoru tərəfindən sahibkarlara öz biznes fəaliyyətlərinin avtomatlaşdırılması üçün bir çox imkanlar yaradılmışdır.

## "Nikoyl Bank" ASC də elektron arayışlar vasitəsilə kreditin rəsmiləşdirilməsi prosesinə start verir

"Nikoyl Bank" ASC-nin xidmətlərindən faydalanmaq istəyən vətəndaşlar iş yerindən arayışı onlayn şəkildə banka göndərə biləcəklər. Bankla “Elektron Hökumət” portalının operatoru arasında əməkdaşlığa əsasən, artıq “Nikoyl Bank” ın müştəriləri də kredit rəsmiləşdirmələrinin icrası üçün tələb olunan müvafiq sənədləri "Elektron Hökumət" portalına müraciət etməklə əldə edə biləcəklər.

**"Elektron arayışlar" xidmətinin üstünlükləri:**

- *İstənilən yerdə və vaxtda sadəcə e-gov.az portalından qeydiyyat keçərək, müvafiq xidmətdən istifadə etmək mümkünlüyü;*
- *Qeydiyyat prosesini Nikoyl Bankın filiallarından icra edərək kredit almaq imkanı;*
- *Daha bir kağız əməliyyatının və buna sərf olunan vaxt, enerji və digər narahatlıqların sonu.*

Qeyd edək ki, belə elektron sənədlərin bütün sahələrdə tətbiqinə sosial tələbat günü gündən artmaqdadır. Tezliklə, "Elektron Hökumət" portalı üzərindən (www.e-gov.az) bir çox sahələrdə növbə, zaman itkisi, stres kimi sosial qayğılara son qoyacaq yeni elektron sənədlər təqdim olunacaqdır.

# Azərbaycan İpoteka Fondu elektron xidmətlərini "Elektron Hökumət" portalı vasitəsilə daha sadələşdirilmiş şəkildə vətəndaşlara təqdim edəcək

**Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu və "Elektron Hökumət" portalı arasında əməkdaşlıq davam etməkdədir. Bu günlərdə "Elektron Hökumət" portalının operatoru – Rabitə və Yüksək Texnologiylar Nazirliyinin Məlumat Hesablama Mərkəzində hər iki qurumun nümayəndələrinin iştirakı ilə toplantı keçirilib. Toplantıda onlayn ipoteka müraciətinin portal vasitəsilə sadələşdirilməsi məsələsi müzakirə edilib.**

Bu istiqamətdə hər iki qurumun texniki potensialı və qanunvericiliklə tənzimlənən məqamlar müzakirə edilmiş, onlayn ipoteka sisteminin daha rahat və səmərəli təşkili üzrə fikir mübadiləsi aparılmışdır. Görüş zamanı fond tərəfindən yaradılan onlayn ipoteka sisteminin portal üzərindən vətəndaşlara təqdimi və bu prosesin qanunvericiliyə uyğun şəkildə təmin edilməsi məsələləri müzakirə edilmişdir.

Toplantı çərçivəsində portal üzərindən təqdim olunan, xüsusilə də, bank sektorunun maraq dairəsində olan elektron arayışlar əyani olaraq fondun əməkdaşlarına nümayiş etdirilmiş, elektron arayışların vətəndaşlar üçün təmin etdiyi üstünlüklər müzakirə edilmişdir.

Tezliklə, vətəndaşlar onlayn ipoteka müraciətini daha rahat və çevik şəkildə icra edə biləcəklər.

# Mədəniyyət və Turizm Nazirliyi yeni elektron xidmətlərini "Elektron Hökumət" portalına inteqrasiya edir

**9 iyun 2015-ci il tarixində "Elektron Hökumət" portalının operatoru – Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin əməkdaşları ilə Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları arasında görüş keçirilmişdir.**

Görüşdə Mədəniyyət və Turizm Nazirliyinin "Texniki təchizat və proqram təminatı" şöbəsinin müdiri Qabil Abbasov, Məlumat Hesablama Mərkəzinin "Yeni Texnologiyalar" şöbəsinin müdiri Cəmşid Naxçıvanski, "Veb proqramlaşdırma" şöbəsini müdiri Emin Novruzov və digər mütəxəssislər iştirak edib.

Görüşdə Mədəniyyət və Turizm Nazirliyinin veb səhifələrində təqdim etdiyi elektron xidmətlərin "Elektron Hökumət" portalına inteqrasiya olunması istiqamətində müzakirələr aparılmışdır. Görüş zamanı inteqrasiya olunacaq xidmətlərin təhlükəsizliyi, istifadə üsullarının portala uyğunlaşdırılması və səmərəliyinin artırılması məsələləri müzakirə edildi. Xidmətlərin portala inteqrasiyası üçün tələb olunan texniki şərtlər MHM-in əməkdaşları tərəfindən izah edildi.

C.Naxçıvanski müzakirə zamanı portala qoşulma ilə bağlı texniki tələbləri, xidmətlərin hazırlanması və "Elektron Hökumət" portalına inteqrasiya prosesini, məlumatların ötürülməsi mexanizmini, ortaya çıxa biləcək problemləri və həlli yollarını qurum nümayəndələrinə bildirdi.

Daha sonra, E. Novruzov artıq portala bundan sonra inteqrasiya olunan xidmətlərin təhlükəsizlik və operativliyi ilə yanaşı, həmçinin dizayn formatının da müvafiq tələblərə uyğunlaşdırılmasının vacibliyini qeyd etdi.

Q. Abbasov MHM-in əməkdaşlarına nazirliyin təqdim etdiyi elektron xidmətlər haqqında ətraflı məlumat verərək, xidmətlərin portala inteqrasiyası zamanı müəyyən imkanların portal tərəfindən yaradılmasını təklif etdi.

Görüşün sonunda MHM-in aidiyyatı mütəxəssislərinin yaxın günlərdə quruma göndərilməsi və ilkin texniki hazırlıqlara başlanması qərara alındı.

# Yay istirahət mövsümünün başlanması ilə əlaqədar "Elektron Hökumət" portalı üzərindən təqdim edilən "GoMap elektron xəritə" elektron xidmətinin əhəmiyyəti daha da artacaq

**Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə hazırlanan "GoMap elektron xəritə" elektron xidməti cari ilin may ayında "Elektron Hökumət" portalı üzərindən vətəndaşların istifadəsinə verildi.**

"GoMap elektron xəritə" elektron xidməti bir neçə funksiyanı yerinə yetirir. Sözügedən xidmətin axtarış sistemi vasitəsilə istənilən obyektin (otel, məktəb, idman kompleksi, bank və s.) ünvanını tapmaq, iki məntəqə arasında marşrutu müəyyən etmək mümkündür. Daha sonra, GoMap elektron xəritə vasitəsilə radius üzrə yaxınlıqda yerləşən məntəqəni öyrənmək mümkündür. "Hardayam?" bölməsi vasitəsilə olduğunuz yer barədə məlumat əldə edə bilərsiniz. Eyni zamanda, "GoMap elektron xəritə" vasitəsilə hətta marşrutların hərəkət istiqamətlərini belə öyrənə bilərsiniz.

Bir sözlə, elektron xəritənin yaratdığı imkanlar arasında nəqliyyat yolları haqqında, iki obyekt arasında marşrutun müəyyən edilməsi, ictimai nəqliyyatın hərəkət istiqamət və s. bu kimi imkanlar mövcuddur. Müvafiq proqram təminatı vasitəsilə, həmçinin, istənilən obyektin (otel, məktəb, idman kompleksi, bank və s.) axtarışı da mümkündür.

Qeyd edək ki, "GoMap elektron xəritə" xidmətindən üç dildə - azəri, ingilis və rus dillərində istifadə etmək mümkündür.

Nəzərinizə çatdıraq ki, yenicə istifadəyə verilməsinə baxmayaraq "GoMap elektron xəritə" xidmətindən may ayı ərzində 1844 dəfə istifadə olunmuşdur.

Yay istirahət mövsümünün başlandığını nəzərə alsaq, "Elektron Hökumət" portalı üzərindən vətəndaşların istifadəsinə verilən bu xidmətin əhəmiyyətinin daha da artacağını proqnozlaşdırmaq mümkündür.

www.e-gov.az

## 01.06.2015 – 30.06.2015-ci il dövrü ərzində "Elektron Hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 345432 |
| 2 | Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi | TQDK | 136784 |
| 3 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | ƏƏSMN | 103977 |
| 4 | Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu | TQDK | 90016 |
| 5 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 65102 |
| 6 | Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi | RYTN | 41778 |
| 7 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | ƏƏSMN | 38523 |
| 8 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 38418 |
| 9 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 31739 |
| 10 | Mobil cihazların qeydiyyatdan keçirilməsi | RYTN | 29179 |
| 11 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 29016 |
| 12 | Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) aparılan təhsilalanların TQDK-nın "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması | TQDK | 22114 |
| 13 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 20931 |
| 14 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Arayışlar | 19538 |
| 15 | Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 17287 |
| 16 | İş yerinə dair arayış | ƏƏSMN | 13430 |
| 17 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 13267 |
| 18 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 12938 |
| 19 | Vətəndaşa aid fərdi məlumatlar üzrə arayış | Elektron Arayışlar | 9201 |
| 20 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 7805 |

## 01.07.2015-ci il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 82 | 166 | 248 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.06.2015 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 20865 | 6137 | 7595 | 34597 |

## 2015-ci ilin iyun ayı ərzində bütün qurumlar üzrə "Elektron Hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 15 | 598561 |
| 2 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 42 | 195316 |
| 3 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 157712 |
| 4 | Dövlət Sosial Müdafiə Fondu | 19 | 137101 |
| 5 | Elektron Arayışlar | 15 | 38058 |
| 6 | Daxili İşlər Nazirliyi | 3 | 3460 |
| 7 | "Azərişıq" ASC | 2 | 1608 |
| 8 | Təhsil Nazirliyi | 5 | 1522 |
| 9 | Mədəniyyət və Turizm Nazirliyi | 1 | 1098 |
| 10 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 5 | 1030 |
| 11 | "Azərsu" ASC | 2 | 935 |
| 12 | Mərkəzi Seçki Komissiyası | 7 | 829 |
| 13 | Dövlət Gömrük Komitəsi | 6 | 749 |
| 14 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 576 |
| 15 | Səhiyyə Nazirliyi | 6 | 405 |
| 16 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 366 |
| 17 | Milli Arxiv İdarəsi | 2 | 330 |
| 18 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 249 |
| 19 | Ədliyyə Nazirliyi | 2 | 234 |
| 20 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 230 |
| 21 | "AzərEnerji" ASC | 1 | 207 |
| 22 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 198 |
| 23 | Dövlət Statistika Komitəsi | 4 | 160 |
| 24 | Vergilər Nazirliyi | 6 | 157 |
| 25 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 115 |
| 26 | Nəqliyyat Nazirliyi | 4 | 86 |
| 27 | Müdafiə Sənayesi Nazirliyi | 2 | 80 |
| 28 | Dövlət Miqrasiya Xidməti | 1 | 70 |
| 29 | Kənd Təsərrüfatı Nazirliyi | 13 | 60 |
| 30 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 55 |
| 31 | Dövlət Sərhəd Xidməti | 3 | 52 |
| 32 | Baş Prokurorluq | 1 | 49 |
| 33 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 15 | 42 |
| 34 | Fövqəladə Hallar Nazirliyi | 3 | 41 |
| 35 | Xarici İşlər Nazirliyi | 1 | 40 |
| 36 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 39 |
| 37 | "Aqroliziq" Açıq Səhmdar Cəmiyyəti | 1 | 38 |
| 38 | Gənclər və İdman Nazirliyi | 4 | 32 |
| 39 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 31 |
| 40 | İqtisadiyyat və Sənaye Nazirliyi | 1 | 29 |
| 41 | Dövlət Dəniz Administrasiyası | 10 | 24 |
| 42 | Energetika Nazirliyi | 5 | 23 |
| 43 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 9 | 21 |
| 44 | Müəllif Hüquqları Agentliyi | 4 | 16 |
| 45 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 14 |
| | **CƏMİ** | **267** | **1142048** |

www.e-gov.az

## "E-hökumət" portalında olan e-xidmətlərin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli qərarı ilə təsdiq edilmiş siyahı ilə

# MÜQAYİSƏLİ TƏHLİLİ

*01.07.2015*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 26 | 1 | 3 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 25 | 17 | 17 | 16 | 14 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 8 | 11 | 5 |
| 7 | Vergilər Nazirliyi | 62 | 57 | 59 | 58 | 58 |
| 8 | Energetika Nazirliyi | 8 | 5 | 5 | 5 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 15 | 10 | 12 | 15 | 14 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 15 | 14 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 1 | 1 | 5 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 4 | 6 | 12 | 5 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 32 | 32 | 36 | 32 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 16 | 35 | 26 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 3 | 6 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 9 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 29 | 27 | 31 | 31 | 26 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 14 | 15 | 14 | 14 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 10 | 10 | 11 | 11 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 4 | 4 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 38 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 1 | 8 | 2 | 2 |
| 39 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 4 | 3 |
| 40 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 41 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 42 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **463** | **344** | **399** | **467** | **403** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | | | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | | | 3 | 4 | |
| 3 | "Azərenerji" ASC | | | 1 | 1 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | | | 6 | 7 | |
| 5 | Baş Prokurorluq | | | 1 | 1 | |
| 6 | Biləsuvar Rayon İcra Hakimiyyəti | | | 1 | 1 | |
| 7 | "Azərişıq" ASC | | | 2 | 2 | |
| 8 | Elektron Arayışlar | | | 6 | | |
| | **CƏMİ:** | | | **22** | **18** | |
| | **YEKUN** | **463** | **344** | **421** | **485** | **403** |

# "Elektron Hökumət" portalına daxil olanların sayı 2 077 613 nəfərə çatdı




Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron Hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2015-ci ilin iyun ayının 30-a qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 7,330,767 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 2,077,613 nəfər olub. Belə ki, 2,077,613 nəfər ümumən 7,330,767 dəfə portala baxıb və 12,771,853 dəfə elektron xidmətlərə müraciət ediblər. Həmin şəxslər 25,890,133 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 33 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 28.4%-ni yeni istifadəçilər, 71.6%-ni isə təkrar müraciət edənlər təşkil edib.

İyun ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 675,627 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 266,496 nəfər olub. Həmin şəxslər 2,089,659 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 1,142,048 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 29 saniyə təşkil edib. İyun ayı ərzində portala müraciət edənlərin 27.6%-ni yeni istifadəçilər, 72.4%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 245,458-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 421 olub.




© 2015 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Nəsimi r-nu, Dilarə Əliyeva küç., 185
Tel.: 157; Email: office@rabita.az